İPƏK YOLU, No.3, 2019, səh.35-42

# DAVAMLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ MAKROİQTİSADİ TARAZLIQ MODELİNİN ROLU

**İlhamə Aslanova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: ilhame234@rambler.ru

**Xülasə**. Məqalədə Azərbaycanda davamlı inkişafla makroiqtisadi tarazlığın bir-biri ilə əlaqəsi tədqiq edilmişdir. Makroiqtisadi tarazlığın davamlı inkişafa təsiri tədqiq edilərkən digər region ölkələrindən fərqli olaraq neft gəlirlərinin ÜDM-da və xarici ticarətdə mühüm çəkiyə malik olması da nəzərə alınmışdır. Tarazlığın təmin edilməsi məqsədilə məcmu təklifin həcmi ilə məcmu tələbin həcminin yaxınlaşdırılması üçün müəyyən iqtisadi islahatların həyata keçirilməsi yolları göstərilmişdir.

**Açar sözlər**: Davamlı iqtisadi inkişaf, makroiqtisadi tarazlıq, məcmu tələb, məcmu təklif, iqtisadi artım.

**ROLE OF MACROECONOMIC STABILITY MODEL IN ENSURING THE SUSTAINABLE ECONOMIC DEVELOPMENT**

**Ilhama Aslanova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The paper studies the relationship between sustainable development and macroeconomic equilibrium in Azerbaijan. When studying the impact of macroeconomic equilibrium on sustainable development, it is noted that the country's oil revenues, unlike other countries in the region, have a clear advantage in foreign trade and GDP. In order to ensure equilibrium, ways of carrying out certain economic reforms are indicated in order to balance the volume of aggregate supply and aggregate demand.
**Keywords:** Sustainable economic development, macroeconomic equilibrium, aggregate demand, aggregate supply, economic growth.

**РОЛЬ МОДЕЛИ МАКРОЭКОНОМИЧЕСКОЙ СТАБИЛЬНОСТИ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

**Ильхама Асланова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме**. В статье исследуется взаимосвязь устойчивого развития и макроэкономического равновесия в Азербайджане. При исследовании влияния макроэкономического равновесия на устойчивое развитие отмечается, что нефтяные доходы страны в отличие от других стран региона имеют явное преимущество во внешней торговле и ВВП. С целью обеспечения равновесия указаны пути проведения определенных экономических реформ для того, чтобы сбалансировать объем совокупного предложения и совокупного спроса.
**Ключевые слова:** Устойчивое экономическое развитие, макроэкономическое равновесие, совокупный спрос, совокупное предложение, экономический рост.

## 1. Giriş

Davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi problemi qarşılıqlı təmin etmə baxımından dialektik vəhdətdədir və bir-birini tamamlayan məsələlərdən hesab olunur. Cəmiyyət miqyasında hər bir dövlət qeyd olunan bu iki problemin həllinə özünün malik olduğu resurs və texnologiya baxımından fərqli yanaşa bilərlər. Belə ki, müəyyən inkişaf mərhələsi keçmiş bir sıra ölkələr davamlı inkişafı digər iqtisadi göstəricilər vasitəsilə müəyyən müddətə təmin edərkən onun dayanıqlı olması üçün mütləq surətdə məcmu tələb ilə

məcmu təklif arasında tarazlığı təmin etməlidirlər. Belə ölkələr sırasına Azərbaycanı da aid etmək olar. Son illərdə Azərbaycan iqtisadiyyatında baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərini onun davamlı olmasının göstəricisi kimi qiymətləndirə bilərik. Lakin beynəlxalq aləmdə baş verən dəyişikliklər, iqtisadi qloballaşmanın təhdidləri və s. tələb edir ki, ölkədə makroiqtisadi səviyyədə tarazlıq ciddi surətdə pozulmasın. Bunun üçün hər bir ölkə iqtisadi artımın qiymətləndirilməsini, tarazlığı təmin edən sosial-iqtisadi təsirlərin öyrənilməsini, xüsusən də ekoloji amillərin nəzərə alınmasını diqqət mərkəzində saxlamalıdır. Məsələnin bu formada qoyuluşu şübhəsiz ki, geniş tədqiqat mövzusuna çevrilməsini şərtləndirir və aktual olduğunu göstərir.

Məcmu tələb və məcmu təklif kateqoriyalarını xarakterizə etdikdən sonra, iqtisadiyyatın makroiqtisadi tarazlıq modellərinin təhlilinə davam edə bilərik. Bunların ən sadə birliyi, məcmu tələb (AD) və məcmu təklif (AS) tarazlığını əks etdirən AD-AS modelidir. Bu iki əyrilərin kəsişmə nöqtəsi tarazlıq vəziyyətini xarakterizə edərək istehsalçıların normal qazancını təmin etmək və istehlakçıların tələbatlarını maksimum dərəcədə təmin etmək üçün imkan verir.

AD-AS modeli bir çox məktəblərin makroiqtisadi tarazlıq modellərinin təhlillərinin əsasında durur. Klassiklər makroiqtisadi tarazlıq modellərini təhlil edərək tam məşğulluq, qiymət elastikliyi, əmək haqqı və faiz dərəcələri, bütün resursların sərbəst hərəkəti ehtimalına əsaslanırlar. Eyni zamanda, AS əyrisi tamamilə qeyri elastikdir, buna görə də ümumi tələbatın (AD) aşağı düşməsi ÜDM-in və məşğulluğunun azalmasına gətirib çıxarmır, yalnız qiymətlərin azalmasına səbəb olur. Buna əsaslanaraq demək olar ki, klassiklər bazarın özü özünü tənzimləməsi nəticəsinə gəlmişlər. Keynsçilərin fikrincə isə dövlət büdcə xərclərini artırmaqla ÜMM və məşğulluğun artımıına köməklik edə bilər.

## 2. Davamlı inkişaf və makroiqtisadi tarazlıq

Davamlı inkişaf və makroiqtisadi tarazlığın təmin edilməsi problemi qarşılıqlı təmin etmə baxımından dialektik vəhdətdədir və bir - birini tamamlayan məsələlərdən hesab olunur. Cəmiyyət miqyasında hər bir dövlət qeyd olunan bu iki problemin həllinə özünün malik olduğu resurs və texnologiya baxımından fərqli yanaşa bilərlər. Belə ki, müəyyən inkişaf mərhələsi keçmiş bir sıra ölkələr davamlı inkişafı digər iqtisadi göstəricilər vasitəsilə müəyyən müddətə təmin edərkən onun dayanıqlı olması üçün mütləq surətdə məcmu tələb ilə məcmu təklif arasında tarazlığı təmin etməlidirlər. Belə ölkələr sırasına Azərbaycanı da aid etmək olar.

Beləliklə, ölkədə makroiqtisadi tarazlığın təmin edilməsi mühüm məsələdir. Belə tarazlığı təmin edilməsi isə yaxın illərdə məcmu təklifin həcmi ilə məcmu tələbin həcminin yaxınlaşdırılmasından ibarət ola bilər. Son 16 ildə Azərbaycanda məcmu tələblə məcmu təklif arasında davamlı tarazlığın olub-olmamasını bilmək üçün aşağıdakı qrafikə nəzər salaq. Qrafikdən göründüyü kimi son 16 ildə Azərbaycanda məcmu tələbin həcmi ilə məcmu təklifin

həcmi yalnız qısa müddət ərzində, yəni 2007-ci ildə bərabər olub. Qalan müddətdə isə məcmu tələb (AD) məcmu təklifi (AC) həmişə üstələyib.




**Qrafik 1.** Məcmu tələbin və məcmu təklifin son 16 ildə inkişaf dinamikası

*Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib*

Hətta 2009-cu ildən bu göstəricilər arasındakı fərq durmadan artıb. 2014-cü ildə məcmu tələb məcmu təklifi təqribən 30% üstələyib. Məcmu tələbin məcmu təklifi son 15 ildə davamlı olaraq üstələməsinin nəticəsidir ki, bu müddət ərzində bazarda mal və xidmətlərin qiymətlərinin yalnız yüksəlməsi müşayiət olunub. Belə davamlı qiymət artımı neft gəlirlərinin aşağı düşməsi şəraitində ciddi iqtisadi problemlər yarada bilər. Belə ki, məcmu tələbin məcmu təklifdən belə üstünlüklə artımı uzun müddət davam edə bilməz.

Beləliklə, ölkədə makroiqtisadi tarazlığın təmin edilməsi mühüm məsələdir. Belə tarazlığı təmin edilməsi isə yaxın illərdə məcmu təklifin həcmi ilə məcmu tələbin həcminin yaxınlaşdırılmasından ibarət ola bilər. Deməli, elə iqtisadi islahatlar həyata keçirilməlidir ki, növbəti 5-10 ildə bu iki göstəricini ifadə edən əyrilər bir-birinə tədricən və mümkün qədər daha çox yaxınlaşsın. Bu iki göstəricinin bir-birinə yaxınlaşması nəzəri cəhətdən aşağıdakı hallarda mümkündür:

1.Yalnız məcmu tələbin azaldılması yolu ilə;

2.Yalnız məcmu təklifin artırılması yolu ilə;

3.Həm məcmu tələbin azaldılması, həm də məcmu təklifin artırılması yolu ilə.

Azərbaycan iqtisadiyyatında makroiqtisadi tarazlığın təmin edilməsi üçün yuxarıda göstərilən mümkün üç variantın hər biri özünəməxsus iqtisadi islahatların aparılmasını zəruri edir. Əlbəttə, təsvir edilən mümkün halları bir-birindən təcrid edilmiş hesab etmək olmaz. Belə ki, “yalnız məcmu tələbin azaldılması” o demək deyil ki, məcmu tələbin azalması məcmu təklifin həcminə təsir göstərməyəcək. Eyni ilə“yalnız məcmu təklifin” artırılmasına da məcmu tələbin həcminə təsirsiz nail olmaq mümkün deyil. Məcmu tələbin hər hansı həcmdə

dəyişməsi dolayısı ilə məcmu təklifin də həcminə və yaxud əksinə, təsirsiz ötüşməyəcək. Lakin yuxarıda qeyd etdiyimiz mümkün variantlar iqtisadi proseslərə dövlət müdaxiləsi nöqteyi –nəzərindən bir-birindən fərqləndirilir. Belə ki, dövlət tənzimləməsi tədbirləri "yalnız məcmu tələbin azaldılması" variantında məcmu tələb komponetlərinin, "yalnız məcmu təklifin artırılması" variantında isə məcmu təklifin komponentlərinin dəyişdirilməsinə yönəldilir. Yuxarıda nəzərdə tutulan üçüncü variantda isə dövlət tənzimlənməsi hər iki göstəricinin komponetlərinin dəyişdirilməsinə yönəlir.

## 3. Makroiqtisadi tarazlıq üçün "yalnız məcmu tələbin" (AD=C+İ+G+X) azaldılması imkanları

Birinci halda, yəni "yalnız məcmu tələbin azaldılması yolu ilə" makroiqtisadi tarazlığa nail olmaq vəzifəsi məcmu tələbin dörd komponentinin (AD=C+İ+G+X) hər hansı biri üzrə və ya bir neçəsi üzrə məcmu tələb həcminin azaldılmasını nəzərdə tutur. Məcmu tələbin azaldılması onun birinci komponentinin (C) - istehlakın ümumi həcminin azaldılmasını nəzərdə tuta bilər. AD əyrisinin bir qədər "aşağı sürüşdürülməsi", yəni məcmu tələbin azaldılması üçün məcmu istehlak həcminin mümkün azaldılması variantlarını araşdırmağa çalışaq. Beləliklə, konkret sual yaranır: 1) Məcmu istehlak həcminin azaldılması mümkündürmü və 2) onun hansı sosial-iqtisadi təsirləri ola bilər?

- ***Məcmu istehlak həcminin azaldılması mümkündürmü?***

Məcmu tələbin birinci komponenti olan istehlak xərcləri (C) digər üç komponentlə müqayisədə məcmu təklifdə daha yüksək çəkiyə malikdir. Bəzi illərdə hətta məcmu tələbin yarıdan çoxu onun payına düşür. 2000-2008-ci illərdə "C"-nin payı AD-də azalan, sonrakı illərdə isə artan dinamikaya malik olub. Bu da onunla bağlıdır ki, 2008-ci ilədək ölkə iqtisadiyyatına yönələn investisiyaların həcmi artan, sonrakı illərdə isə azalan dinamikaya malik olub.

**Cədvəl 1**. Məcmu tələbin komponentlərinin məcmu tələbin həcmində payı

| **İllər** | **AD** | **C** | **İ** | **G** | **X** | **C/AD (%)** | **İ/AD (%)** | **G/AD (%)** | **X/AD (%)** |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2000 | 5899,2 | 3272,2 | 1289,8 | 764,0 | 573,2 | 55 | 22 | 13 | 10 |
| 2001 | 6643,5 | 3498,4 | 1454,5 | 807,5 | 883,1 | 53 | 22 | 12 | 13 |
| 2002 | 8322,9 | 4171,2 | 2718,0 | 931,8 | 501,9 | 50 | 33 | 11 | 6 |
| 2003 | 10241,8 | 4793,8 | 4249,3 | 1234,5 | -35,8 | 47 | 41 | 12 | -0,35 |
| 2004 | 12971,8 | 5549,9 | 5820,3 | 1502,1 | 99,5 | 43 | 45 | 12 | 1 |
| 2005 | 15518,7 | 6508,7 | 6733,4 | 2140,7 | 135,9 | 42 | 43 | 14 | 1 |
| 2006 | 20519,2 | 8208,1 | 7415,6 | 3790,1 | 1105,4 | 40 | 36 | 18 | 5 |
| 2007 | 28034,5 | 11249,7 | 10353,9 | 6086,2 | 344,7 | 40 | 37 | 22 | 1 |
| 2008 | 80580,2 | 15891,9 | 13328,0 | 10774,2 | 40586,1 | 20 | 16 | 13 | 50 |
| 2009 | 46974,7 | 17417,6 | 10475,0 | 10503,9 | 8578,2 | 37 | 22 | 22 | 18 |
| 2010 | 59895,9 | 19251,5 | 14118,9 | 11765,9 | 14759,6 | 32 | 24 | 20 | 25 |
| 2011 | 71445,2 | 22184,0 | 17048,8 | 15397,5 | 16814,9 | 31 | 24 | 22 | 23 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2012 | 76486,7 | 24564,0 | 20251,1 | 17416,5 | 14255,1 | 32 | 26 | 23 | 19 |
| 2013 | 81875,8 | 28021,2 | 21448,2 | 19143,5 | 13262,9 | 34 | 26 | 23 | 16 |
| 2014 | 84499,0 | 31268,2 | 21890,6 | 18699,3 | 12640,9 | 37 | 26 | 22 | 15 |

*Qeyd: Cədvəl müəllif tərəfindən hesablanaraq tərtib edilib*

Cədvəldən görünür ki, məcmu tələbin həcmində istehlak və investisiyalarının həcmi əsas rol oynayır. Lakin 2008-ci ildən sonra dövlət xərcləri kəskin artıb. 2000-2008-ci illər arası dövrdə bu komponentlərin həcmi arasındakı ciddi pərakəndəlik sonrakı illərdə bir qədər azalıb və onların payı arasındakı fərqlər xeyli azalıb. Ölkə iqtisadiyyatında makroiqtisadi tarazlıq üçün mühüm əhəmiyyətə malik olan digər fakt tədiyyə balansının həcmi və daha çox neft ixracı ilə bağlı olmasıdır. Yəni Azərbaycandan neft ixracının 2008-ci ildən kəskin artması və dünya bazarında neft qiymətlərinin xeyli yüksək olması hesabına X komponenti sonrakı illərdə kəskin artıb. Bu, məcmu tələbin ümumi həcminə ciddi təsir göstərib. 2012-cü ildən başlayaraq neft qiymətlərinin aşağı enməsi Azərbaycanda tədiyyə balansına da ciddi təsir göstərib. 2013-cü ilədək bu əyrinin azalması aşkar hiss edilir, amma məcmu tələbin ümumi həminə ciddi təsir göstərməyib. Lakin 2014-cü ildən sonra neft qiymətlərinin azalması həm tədiyyə balansına, həm də məcmu tələbin ümumi həcminə ciddi təsir göstərəcək. Bunu 2-ci qrafikdən də aydın görmək olur.




**Qrafik 2.** Məcmu tələbin komponentlərinin məcmu tələbdə pay dinamikası

*Qeyd: Qrafik müəllif tərəfindən tərtib edilib*

Nəzərə alsaq ki, Azərbaycanın ixrac malları çoxşaxəli deyil və əsasən neft və qaz məhsulları ilə məhdudlaşır, onda neft qiymətlərinin dünya bazarında azalması nəticəsində tədiyyə balansının xeyli azalacağı qaçılmazdır. Çünki Azərbaycan bazarında idxal mallarının çeşidi çoxdur və həcmi permanent idxal malları hesabına sabitdir.

Azərbaycan iqtisadi modeli üçün məcmu tələbin əsas komponenti olan istehlak komponentinin (C) strukturu son 16 ildə əhalinin gəlirlərindən asılı olaraq xeyli dəyişib. Son 16 ildə bu gəlirlər təqribən 5 dəfə artıb. Gəlirlərin əsas mənbəyi isə "işçilərə əmək ödənişləri", "sahibkarlıq fəaliyyətindən gəlirlər" və "alınmış cari transferlərdən" ibarətdir. Gəlirlərin strukturunda "mülkiyyətdən gələn gəlirlərlər" o qədər də yüksək paya malik deyil. Gəlirlərin strukturunda "alınmış cari transferlərdən" gələn gəlirlər diqqəti cəlb edən paya malikdirlər. 2014-cü ildə bu ümumi gəlirlərin 10%-dən çoxunu təşkil edib. Nəzərə alsaq ki, alınmış cari transferlərin əsas mənbəyi Rusiya Federasiyasıdır. Odur ki, Rusiya Federsiyasında iqtisadi tənəzzül Azərbaycan iqtisadiyyatında alınmış cari transferlərin həcminə və beləliklə, əhalinin gəlirlərinə ciddi təsir göstərəcək. Bu azalma ən azı iki ölkənin milli valyutasının nisbəti qədər dəyişə bilər. Bunu təqribən belə hesablamaq olar:

$$T_m = T_r \times R \text{ (R=0,024)}$$

**Cədvəl 2**. Əhalinin gəlirləri və xərcləri (cari qiymərlərlə, milyon manatla)[1]

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014[2)] |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər- cəmi** | **8 063,6** | **10 198,5** | **14 558,2** | **20 735,4** | **22 601,1** | **25 607,0** | **30 524,6** | **34 769,5** | **37 562,0** | **39360,7** |
| İlkin gəlirlər | 6 394,2 | 8 299,6 | 11 899,6 | 16 979,5 | 19 215,6 | 22 126,5 | 26 861,9 | 31 181,4 | 33 830,0 | 35 276,8 |
| o cümlədən: | | | | | | | | | | |
| işçilərə əmək ödənişləri | 2 954,8 | 3 364,5 | 4 474,8 | 5 871,7 | 6 377,8 | 7 027,3 | 8 020,0 | 9 224,9 | 10 077,0 | 10 721,9 |
| sahibkarlıq fəaliyyətindən gəlirlər | 3 432,6 | 4 874,1 | 7 343,2 | 10 881,3 | 12 625,2 | 14 725,0 | 18 543,9 | 21 140,8 | 22 801,5 | 23 595,8 |
| mülkiyyətdən gələn gəlirlər | 6,8 | 61,0 | 81,6 | 226,5 | 212,6 | 374,2 | 298,0 | 815,7 | 951,5 | 959,1 |
| alınmış cari transferlər | 1 669,4 | 1 898,9 | 2 658,6 | 3 755,9 | 3 385,5 | 3 480,5 | 3 662,7 | 3 588,1 | 3 732,0 | 4 083,9 |
| **Xərclər-cəmi** | **6 508,7** | **8 208,1** | **11 249,7** | **15 891,9** | **17 417,6** | **19 251,5** | **22 184,0** | **24 564,0** | **28 021,2** | **31 268,2** |
| Son istehlak xərcləri | 5 532,6 | 6 873,1 | 9 374,6 | 13 286,2 | 15 048,9 | 16 528,5 | 19 216,0 | 21 389,9 | 24 150,0 | 27 069,6 |
| Ödənilən cari transferlər | 976,1 | 1 335,0 | 1 875,1 | 2 321,7 | 2 111,8 | 2 202,0 | 2 619,5 | 2 872,7 | 3 370,5 | 3 435,9 |
| Mülkiyyətdən ödənilən gəlirlər | - | - | - | 284,0 | 256,9 | 521,0 | 348,5 | 301,4 | 500,7 | 762,7 |
| **Qənaətlər** | **1 554,9** | **1 990,4** | **3 308,5** | **4 843,5** | **5 183,5** | **6 355,5** | **8 340,6** | **10 205,5** | **9 540,8** | **8 092,5** |
| Qeyri-maliyyə aktivlərin yığımı | 477,8 | 420,5 | 441,4 | 478,2 | 807,8 | 874,1 | 1 165,3 | 1 593,6 | 1 921,9 | 2 244,2 |
| Maliyyə aktivlərin yığımı | 1 077,1 | 1 569,9 | 2 867,1 | 4 365,3 | 4 375,7 | 5 481,4 | 7 175,3 | 8 611,9 | 7 618,9 | 5 848,3 |

Burada $T_m$ - transfer olunmuş məbləğin Azərbaycan manatı ilə məbləği, $T_r$- transfer olunmuş məbləğin Rusiya rublu ilə məbləğə, R isə rublun manatla kursudur. Məsələn, 2013-cü ildə cari transfer təqribən 3,7 milyard manat olubsa, onda bu həcmin rublla miqdarı

$$T_r = \frac{3{,}7\ milyard\ \ manat}{0{,}024} = 154{,}17\ milyard\ rubl \quad \text{idi.}$$

[1]http://www.stat.gov.az/source/system_nat_accounts/ (Milli hesablar sistemi və tədiyə balansı-əhalinin gəlirləri və xərcləri)

Yalnız rublun manata nisbətən dəyərinin dəyişməsi hesabına Rusiyadan Azərbaycana edilən transferlərin həcmi 1,5 dəfə azala bilər. Bura rublun alıcılıq qabiliyyətinin azalmasını və Rusiyada yaşayış xərclərinin artdığını da nəzərə alsaq onda belə transferlərin həcminin təqribən 2 dəfə azalacağını proqnozlaşdırmaq olar.

**Nəticə.** Makroiqtisadi tarazlığın təmin edilməsi davamlı inkişafın təmin olunmasına istiqamətlənən bir iqtisadi proses olub, iqtisadiyyatda digər bir sıra münasibətlərlə səbəb-nəticə əlaqələrini şərtləndirməkdədir. Nəzərə almaq lazımdır ki, davamlı inkişaf təmin olunma baxımından müəyyən konsepsiyaya əsaslanmalı və Azərbaycan üçün onun başlıca prinsipləri müəyyən olunmalıdır. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, davamlı inkişaf anlayışı Azərbaycan iqtisadiyyatı üçün daha çox yoxsulluğun aradan qaldırılması mənasında yanaşılmış və bu məqsədə çatmaq üçün aşağıdakı tədbirlər prioritet hesab olunmuşdur:

- Makroiqtisadi stabilliyin qorunması və qeyri-neft sektorunun tarazlı inkişaf etdirilməsi;
- Gəlir əldə etmək imkanlarının genişliyi və yoxsulluğun azaldılması;
- Sosial müdafiə sistemində səmərəliliyin əldə olunması və xüsusən də sosial risklərin azaldılması;
- Müharibə vəziyyəti ilə əlaqədar olaraq məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədi ilə iqtisadi tədbirlərin gücləndirilməsi;
- Xüsusən təhsil və səhiyyə sistemində islahatların həyata kecirilməsi və xidmətlərin keyfiyyətinin artırılması;
- Sosial sferada infrastrukturun genişləndirilməsi və xidmətlər sisteminin təkmil hala gətirilməsi;
- Ekoloji vəziyyət ilə əlaqədar ətraf mühitin mühafizəsi üzrə iqtisadi imkanlardan istifadə;
- İnstitusional islahatların davam etdirilməsi fonunda səmərəli idarəetmə sisteminin yaradılması.

Göründüyü kimi davamlı inkişafın əldə olunmasının başlıca şərti kimi makroiqtisadi stabilliyin təmin olunması əsas götürülmüşdür. Lakin tədqiqat işində biz bu məsələyə ikili xarakter yanaşması göstərmiş və əsaslandırmışıq ki, davamlı inkişaf ilə makroiqtisadi tarazlıq bir-birini qarşılıqlı olaraq tamamlayan iki prosesdir. Lakin burada davamlı inkişafla bağlı zaman amilini mütləq nəzərə almaq lazımdır.

Beləliklə, makroiqtisadi tarazlığın təmin edilməsi üçün məcmu tələbin əsas komponenlərindən olan istehlak xərclərinin həcminin dövlət müdaxiləsi vasitəsilə azaldılması arzu olunmasa da neft gəlirlərinin azalması şəraitində kəskin azalacağı təhlükəsi mövcuddur. Əhalinin istehlak xərclərinin azalması, onların real gəlirlərinin azalması deməkdir. Bu isə ciddi sosial-iqtisadi problemlərə yol aça bilər.

**Ədəbiyyat**

1. Bazar iqtisadiyyatı şəraitində Azərbaycanın milli iqtisadiyyatının dayanıqlı inkişafının əsas istiqamətləri, Bakı, Elm, 2008, səh.72-74.
2. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı, səh.66-68.
3. Azərbaycanın iqtisadi inkişaf modelləri, Iqtisadi Tədqiqatlar Mərkəzi, Bakı, 2009.
4. www.stat.gov.az